# YADDAŞIN SAHİB OBRAZI

## Yaxud "Yaxşılıq dünyanın üzündə işıq"dır

Sahib Əliyevin ümumi yaradıcılığına yaxından bələd olanda, biz bu yaradıcılıqda sənətkarlığın bir çox cəhətlərini görə bilirik. Bu yaradıcılıqda, birinci növbədə, oxucu yaddaşını oyaqqalma əminliyinə tuş etmək fəlsəfəsi var. Onun hadisə və proseslərə fərqli yanaşması diqqətimizi mümkün reallığa çəkir və biz zamana uyğun çevrilmədə geniş əhatə tapmağa müvəffəq oluruq.

Açığını deyim ki, Sahib ədəbi yaradıcılıqda fikir dürüstlüyü axtaran şairdir. İlhamını sadə, ütüsüz, milli koloritli, aydın xalq yazı dilində əks etdirdiyi poetik fikirlərin cənginə verə bilmək və bu rakursda poetik-fəlsəfi fikir ifadə edə bilmək cəsarəti onun kimi az-az şairlərə xas olur. Bəlkə də, bu mənada, onun məqsədəçatma reallığı ruhumuza sadə seyretmə kimi deyil, mümkün fəlsəfi dərketmə kimi si-rayət etmək haqqı qazanır. Deməli, poetik müstəvidə zahirə baxışla daxilə keçidin ortaq nöqtəsini sadə dillə də tapmaq mümkünmüş...

Sahib Əliyevin yaradıcılıq cəhdləri mental dəyərlər aşılayır. Biz onun iç göynərtilərində Allah, Dünya, Torpaq, Vətən, İnsan, Təbiət və s. tərzdə mənalar tap-mağa çətinlik çəkmirik. Çoxlarının toxunduğu mövzulara o da münasibət bildirir, amma fərqli şəkildə məntiq formalaşdırır. Məsələn, Dünya mövzusu az qala hər kəsin yaradıcılığında özünü göstərir. Sahib müəllimin də bu əhatədə var-gəl etdiyini görürük:

*Fərsizə daxmadır, fərliyəsə taxt.*
*Hünərdən kasıba neyləsin ki, baxt?*
*Ona düz baxanı ucaldar hər vaxt,*
*Ona kəc baxanı çalar bu dünya...*

Bu misralarda fərqli zərurətlər təcəlladadır; müəllifin dünya hissi bədii keçiddə fəlsəfi-ictimai məna və məzmun verir, burada poetik təsiretmə fəaldır, ovqat mistik-real əhatədə təzahür edir, həyat zərurətləri, metafizik (metahissi) gerçəklər bir qədər də ruhi zəmin yaradır. Qısası, dünya, onun hüduduna vara bildiyi ehkamdır...

Şair başqa bir dünya səciyyəli şeirində də eyni salxarı əks etdirir:

*...Bu dünya bu cürə olmazdı, bəlkə,*
*Mən gəlib dünyada doğulmasaydım.*

Digər bu tərz şeirlərdə də ovqatyüksəldici məqamlar var:

*...Dünyanı nə qədər, gör, adam vurur,*
*Yaxşı ki, bu dünya bu cürə durur!*

* * *

*Bu dünyanın ləzzətini*
*Şərbətini içən bilər.*
*Başqa dünya varsa əgər,*
*Bu dünyadan köçən bilər...*

* * *

*Aşıb məcrasını dəli çay kimi,*
*Bu dünya harasa axmaq istəyir.*
*Verin bu dünyanın cilovun mənə,*
*Bu dünya yolundan çıxmaq istəyir...*
və s.

Bu modern-fərqli aspekti bu ruhda şeirlərin bədii formatı kimi də qəbul etmək olar; çünki mövzu bir olsa da, məna fərqli təsirlər verir.

*Başın göylərdədi, kökün dərində,*
*Nə belə çatmısan qaşını, dağlar?*
*Qartal qanad çalar zirvələrində,*
*Kəklik xınalayar daşını, dağlar...*

***

*Mən təkcə yer üçün doğulmamışam,*
*Göylərdə quş kimi səkməyim də var.*
*Bu günün işinə taparam çarə,*
*Sabahın qayğısın çəkməyim də var...*

***

*Kim ki sadə, mehriban,*
*Qəlbitəmiz adamdı,*
*Ona elə gəlir ki,*
*Hamı çox düz adamdı...*

Poetikaya fəlsəfi rakurslardan yanaşmaqla bilirik ki, hissi dərketmədə ovqat



dəyişəndir; buna da real təsiretmələr zəmin yaradır. Sahib Əliyevin də poetik ovqatdəyişməsi hadisələrə fərqli ədəbi baxışıdır. Yuxarıda nümunə kimi verdiyimiz misralarda düzgün müşahidə, söz içindən söz çıxartmaq bacarığı, eyham, dərin hissi yanaşma və s. müəllifin səmimi münasibətini ifadə edir. Maraqlıdır, burada müşahidə ovqatdəyişən məğzdir; düzlüyün əyri məcrada da düz olması fikrinə eyham vurur və sonadək öz missiyasını davam etdirir - yəni könül iztirablarını yanlış parıltılara dəyişmək fikri olmayan şair zəruri keçmələrdə effektiv əhatə tapır, oxucusunu da buna inandırır... Açığı «Fərsizə daxmadır, fərliyəsə taxt. Hünərdən kasıba neyləsin ki, baxt?» fikrində də müəllif səmimidir, yəqinlik xüsusunda insan və yaşamın eyni müstəvidə qərar tutduğunu ərz edir, maddi çətinlik, ehtiyac içində çabalayan kasıb fərdin həyat burulğanında daha aktiv şəkildə manevrlər aparır. Demək istəyir ki, kasıb fərd (yaxud kasıb sosial qrup) zaman-zaman öz mədəniyyətindən sıxışdırılıb çıxarılır - qeyri-sosial ünsürə çevrilir.

Bu, və bu kimi sosial parametrlərdə fəlsəfi-poetik əhatə yarada bilməsi Sahib Əliyevin ovqatdəyişmə marağında bir nizam cilvələyir... O, bəlkə də elə bu səbəbə əsaslanaraq " Mən təkcə yer üçün doğulmamışam, Göylərdə quş kimi səkməyim də var" deyir və ortaq həyat miqyaslarına diqqət çəkir.

- Allahdan qorxmursan?
Bu, bir nəfərin
Mənə sualıdı, sual da dərin.
- Allah adamıyam, olsun xəbərin,
Mən niyə Allahdan qorxum ki, qardaş?

Bir bəndini misal gətirdiyimiz «Allah ürəyimdə, de, ola-ola...» şeirində şair əvvəlcə (zahiri mənada) insanın bir damla sudan "zühur" etməsinə diqqət çəkir, sonrakı mərhələdə onun həyat enmələrindəki təlatümlərdən cana doyduğunu isbata yetirir və bu əhatə yaranış və yaşamın nə olduğunu aşkar-izhar edir, gerçək ömür fəlsəfəsinə baxış sergiləyir, həm də zəruri bir nüansı ortaya çıxarır ki, Allahı tanımağa cəhd edən adamın Ondan qorxması yersizdir... Çünki ruha zidd, hissə müxalif dərketmə bir az da başqalaşma qorxusu yaradır. Bu zəmində, müəllifin «Mən niyə Allahdan qnorxum ki, qardaş?» deməsi cəmiyyət öyüdü deyil, özünün öz fəhminə sığışdırdığı, bu timsalda milyonlara poetik dillə dediyi həqiqətdir. Bunu da «Qorxu olan yerdə itər həqiqət» və «Allahdan qoy qorxsun pis iş görənlər» fikirləri ilə tam isbata yetirir.

Dinsizləşmə, dinə münasibətdə əksləşmə cəmiyyətə bəzən faydasızlıq da gətirir. Sahib Əliyev bunu dəqiq bildiyindən əxlaq, din, zaman və həyat zərurətlərini bayağı səmtlərdən yayındırır, təfəkkürləri doğru ünvana istiqamətləndirir. Şübhəsiz, bu zəminə görə onun yaradıcılığında cəmiyyət-din reallığı həyat-tale cəhdləri qədər önəmlidir və buradakı ruhsallıq özünün modern ovqatdəyişməsi ilə daha təsirlidir.

*Mən qəmdən yazanda elə bilmə ki,*
*Kədər dənizində batan şairəm...*

* * *

*Gəlir bu dünyaya, gedir də insan,*
*Bununçün, ey ürək, darıxma sən, gəl.*
*Beynimdə o qədər fikirlərim var,*
*Açıb deməliyəm ölümdən əvvəl...*

***

*Yaxşılıq - dünyanın üzündə işıq,*
*Pislik - hissimizə qatılan zəhər...*

Poetik fikrin nəsihət şəklində təqdimi də oxucuya xoş ovqat verir. Əslində, bu, Sahib müəllimin ənənəvi hallara bədii-ictimai yanaşmasıdır. Bu fərqli baxış gerçək təbəddülatlara xasdır. O mənada ki, ilki - əzəli bir damla su (nütfə) olan insan fiziki qüsurlu olduğu halda belə, yaşamağa məhkumdur; nə etməlidir, iş qabiliyyəti olmadığı təqdirdə qayğıya möhtaclığı da artır, cana qıyma ehtimalı da. Yəni, müəllif intellektual səviyyə ilə fiziki-emosional imkanları düzgün olmayan hər hansı bir nöqteyi-nəzərlə xarakterizə edənlərə mütləq bir məna verir, insanın sosial mahiyyət daşıdığını ön plana çıxarır.

Həyat qanunları düzgün yazılmayanda, cəmiyyət üzvlərindən biri yüksək, digəri aşağı mərtəbədə dayanır. Elə Sahibin «Mən qəmdən yazanda elə bilmə ki, Kədər dənizində batan şairəm...» eyhamı da mənəvi və maddi rahatlıqdan uzaq insanları andırır. Lakin yaşamaq məcburiyyəti bir çoxlarını həyat eşqi ilə sıxır deyə, «Beynimdə o qədər fikirlərim var, Açıb deməliyəm ölümdən əvvəl...» məntiqi öz oblastında real-keçici görünür...

Sahib Əliyevin insanı sosial qayəi kimi səciyyələndirən bir sıra şeirlərində yaşam dürüstlüyü və maddi çatışmazlığın təsirləri diqqət çəkir. Belə deyək, müəllif maddiyyyatsızlıq üzündən mənən sınmağı heç kimə məsləhət görmür. Çünki mənən sınmaq hədəflərin yaşam faciəsidir və sosial həyatın fiziki imkanlarını azaldır...

*...Batində ağlıma güc gəlir nəfsim,*
*Zahirdə adıma adam deyirlər...*

***

*Elə ki, hər dəfə*
*başlayır payız küləyi,*
*yarpağın dodağı titrəyir,*
*insanın ürəyi...*

***

*Ömür açılmamış kitabdı, məncə,*
*Möcüzə tapaydıq kaş, arasında...*

***

*Günəş də bir dənədir,*
*Ay da bir dənə.*
*Bu Yer də*
*hesabda-sayda bir dənə...*

Bu fikirlərdə poetik-ictimai bir söykəkolma faktı var və bu, oxucu üçün effektiv təzahüretmələrə meyl yaradır. Səmimi deyək ki, bu formatda şeirlərin hamısında (düşünürük ki, bir-bir ad çəkməyə lüzum yoxdur) insan-mənəviyyat dəyərləri, mentalitet - milli kimlik məsələləri zahiri baxışlara, daxili enmələrə öz ictimai dolğunluğu ilə sirayət edir. Sevindirici haldır ki, bu təsiretmələrdə oxucu yaddaşa da itilənir.

Şair həyata uyğunlaşa bilmək zərurətini hadisələrin mənsəbi kimi göstərməklə ömür-tale məğzlərini ictimai kəsərsiz hesab edir... Və müəllif dərketməsində bu ehtimal fərqli-oxşar tərzdə öz yəqinliyini göstərə bilir. Yuxarıdakı nümunələrdə müəllif eyhamı bir ictimai seyretmə kimi diqqət çəksə də, ədəbi xüsusat kimi məntiq hasil edir. Bəlkə də buna görə Sahib müəllim etibarın, inamın itməsini həyat faciəsi hesab edir və bugünün fəsadlarını dilə gətirir, sabahkı olacaqlardan ehtiyatlanır...

Gözəllik gəzirdim, qarşıma çıxdın,
Elə bil bir yaşıl çəməni gördüm...

***

Fələk qoymadı ki, vurasan başa,
Barı, sən gəlinlik yaşını, qızım.
Cehiz gətirmişəm, qoyuram qoşa
Səninlə bu qəbir daşını, qızım...

Abır-həya, insan salxarı, ağırlığaenmə kimi vizuallıqlar Sahib Əliyevin ədəbi eyhamının gerçək ehtimallarıdır. O, heç bir şeirində insani dəyərlərə ehtiramını gizlətmir, lakin etika xatirinə həyat çıxıntılarında ilişib qalmağın da insan xarakterinə yad olduğunu ərz edir...

Bir sıra şeirlərində isə biz Sahib Əliyevi iç dünyasının təlatümündə çabalayan görürük. Məsələn, qızının qəbir daşına yazdığı şeir (bu timsalda bir sıra şeirlər) onun könül nəğmələrinin susduğu ana işarə vurur. O, nə qədər özünü toxtaq tutsa da, hansı cəhdlərlə insan-tale, həyat-ictimai çevrilmə proseslərini vizuallıqdan çıxarsa da, özü dürüst məntiqə keçməyi bacarır deyə, həyatla insan xarakteri arasında periodik mərkəz təyin edir, varlığa sirayətetməni bu nöqtədə qərarlaşdırır və belə anlaşılır ki, onun zərurət subyektində də kövrək notlar mövcuddur. Qəbir daşını qızına cehiz qoşması poetik mənada bədii dəhşətdir. Daş ürəklər belə bu mənada bir sızıltı duya bilər. Həm də bu bədii aşınma qorxuvəhşət məsələləri kimi təsir bağış-lamır, burada insan həyatı, yaşama müvafiq enmələr ictimai dəyərlər kimi önə çəkilir. Və bəlli olur ki, insanın mənəvi dünyası onun metafizik inikasıdır. Lakin insan fəhmi gerçək mənada qorxu və təlaşa məhkumluq qazanırsa, o zaman mənəviyyat bu proses üçün praktik fəaliyyət mexanizmi ola bilmir. Zənnimizcə, Sahib Əliyevin poetik yaradıcılığında da bu təsiretmələr daha çox zərurilik kəsb edir. Buna da onun bir az müdrikləşmə marağı, bir az da bədii-praktik təcrübədən yararlana bilmək bacarığı zəmin yaradıb; hər halda təhlilə çəkdiyimiz və çəkmədiyimiz bütün şeirləri yaddaşımızda bir Sahib Əliyev obrazı canlandırır.

**2019**



***Hikmət*** Məlikzadə
***Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident mükafatçısı***